# İqlim dəyişikliyi problemlərinin həlli üçün qlobal əməkdaşlığın əhəmiyyəti qeyd edilib

*Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 16-da COP29 çərçivəsində Bakıda Azərbaycan parlamenti və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçirilən Parlament Görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzodanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qonağı salamlayan spiker Sahibə Qafarova ölkəmizin evsahibliyi ilə keçirilən bu mühüm tədbirdə iştirakına görə qonağa təşəkkürünü bildirib.

Görüşdə iqlim dəyişikliyi ilə əlaqədar dünyanın üzləşdiyi problemlərin həlli üçün qlobal əməkdaşlığın əhəmiyyəti qeyd edilərək, Azərbaycan və Tacikistan tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlərlə bağlı fikir mübadiləsi aparılıb, bu istiqamətdə parlamentlərin mühüm rolu qeyd edilib.

Mahmadtoir Zokirzoda COP29-un yüksəksəviyyəli təşkilinə görə təbriklərini çatdırıb, COP29-un və Parlament Görüşünün əhəmiyyətini qeyd edib.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin dinamik inkişaf etdiyi vurğulanıb. Spiker Sahibə Qafarova dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində mühüm rol oynadığını bildirib.

Görüşdə dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində parlamentlərarası əlaqələrin mühüm əhəmiyyəti də diqqətə çatdırılıb. Milli Məclisin Sədri Sahibə Qafarova özünün Tacikistana, qarşı tərəfin isə ölkəmizə səfərlərini məmnunluqla xatırlayaraq, bildirib ki, bu səfərlər münasibətlərimizin yüksək səviyyəsinin, qarşılıqlı dəstəyin göstəricisidir.

Söhbət zamanı hər iki ölkənin qanunvericilik orqanında fəaliyyət göstərən dostluq qrupları çərçivəsində əməkdaşlığın, deputatların qarşılıqlı səfərlərinin münasibətlərin dinamikasına müsbət təsirləri qeyd edilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 17 noyabr (№ 253).- S.3.